

«Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

2



Azərbaycan Respublikasının səhiyyə işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2




«Heydər Əliyev adına təqaüd»ün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 11-12 (771) 30 iyun 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Teymur Musayev: «105 il ərzində Azərbaycan səhiyyəsi şərəfli və çətinliklərlə dolu bir yol keçib»



8

## Səhiyyə naziri tibb işçilərini təltif edib



6

## Həm insanlara, həm planetimizə zərərli təsirləri olacaq potensial ekoloji fəlakətə etiraz haqqında BƏYANAT



4




Valokordin
Stress və yuxusuzluq zamanı ilk yardım

- Valokordin® - sedativ və spazmolitik təsirə malik olan, böyüklərin sinir sistemi üçün effektiv Almaniya istehsalı dərmandır.

Tərkibi (100 q) :
- Fenobarbital - 2, 00 q
- Etilbromizovalerianat - 2, 00 q
- Nanə yağı - 0, 14 q
- Mayaotu yağı - 0,02 q

Qeydiyyat vəsiqəsi
DV 22-01245

MADE IN GERMANY
ZEYTUN


## Bakıda Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumu keçirilib




9

### *Aforizm*

*Sözdə bütün insanlar eynidirlər və yalnız hərəkətləri onların fərqlərini üzə çıxarır.*

*Jan Molyer*

# Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumunun iştirakçılarına



**Hörmətli simpozium iştirakçıları!**

Sizi xaricdə yaşayan azərbaycanlı həkimlərin birinci simpoziumunun ölkəmizin paytaxtında öz işinə başlaması münasibətilə ürəkdən salamlayır, insanların sağlamlığının qorunması naminə fəaliyyətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

Bu ilk simpoziumun Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirləri çərçivəsində təşkili ona dərin rəmzi məna qazandırır.

Azərbaycanın səhiyyə infrastrukturunun tamamilə yenilənməsi və müasir əsaslar üzərində qurulması məhz Ulu Öndərin adı ilə bağlıdır.

Ötən müddətdə uğurla gerçəkləşdirilmiş işlərin davamı olaraq səhiyyənin inkişafı bu gün də dövlətimizin sosial yönümlü siyasətinin prioritetlərindəndir.

Respublikamızın regionlarında yeni-yeni diaqnostika mərkəzləri və şəfa ocaqları istifadəyə verilmiş, səhiyyə müəssisələri qabaqcıl texnologiyalara əsaslanan tibbi avadanlıqlarla təchiz edilmiş, əhalinin sosial müdafiəsinin başlıca tərkib hissəsi kimi həyati əhəmiyyətə malik icbari tibbi sığorta tətbiq olunmuşdur. Son illərdə təbabətin aktual məsələlərinə dair beynəlxalq səviyyəli konfrans və görüşlərə ölkəmizin ev sahibliyi etməsi isə Azərbaycan səhiyyəsinin qlobal səhiyyə sisteminə inteqrasiyasına əlverişli zəmin yaratmışdır.

Qürurverici haldır ki, Azərbaycan tibb təhsilinin və elminin yetirdiyi yüzlərlə həmvətənimiz dünyanın müxtəlif guşələrində ən mötəbər klinikalarda çalışır və yüksək peşəkarlıqları ilə seçilərək xalqımızı layiqincə təmsil edirlər. Onlar ölkəmizin hüdudlarından çox-çox uzaqlarda olsalar da, qəlbləri daim doğma Azərbaycanla döyünür. Qırx dörd günlük Vətən müharibəsi zamanı könüllü şəkildə ön cəbhəyə yollanan ağ xalatlı qəhrəmanlarımızın simasında bu, bir daha təsdiqini tapdı.

İştirakçısı olduğunuz simpozium təbabətin ayrı-ayrı sahələrindəki yeniliklərin paylaşılması və xaricdə məskunlaşmış həkim soydaşlarımızın öz nəzəri və təcrübi bilikləri ilə Azərbaycan səhiyyə sisteminin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlərə yüksəkixtisaslı tibbi kadrlarımızla birgə töhfələr vermələri üçün potensial imkanların üzə çıxarılması məqsədi daşıyır.

Ümidvaram ki, simpoziumda tibb elminin çağırışları işığında innovativ metodlardan istifadəni nəzərdə tutan geniş fikir, təcrübə mübadiləsi və dolğun müzakirələr aparılacaq, qarşılıqlı faydalı əməkdaşlığın yeni perspektivləri müəyyən ediləcəkdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 iyun 2023-cü il*

# Dövlət başçısı hərbi həkimləri təltif etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il iyunun 25-də «Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncam imzalayıb.

Sənədə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndi rəhbər tutularaq, ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu orden və medallarla – «Azərbaycan Bayrağı», 3-cü dərəcəli «Rəşadət», 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordenləri, «Vətən uğrunda», «İgidliyə görə», «Cəsur döyüşçü», «Döyüşdə fərqlənməyə görə», «Suqovuşanın azad olunmasına görə», «Xocavəndin azad olunmasına görə», «Kəlbəcərin azad olunmasına görə», «Hərbi xidmətlərə görə» medalları ilə təltif edilib.

«Hərbi xidmətlərə görə» medalı ilə təltif olunanlar arasında tibb xidməti polkovniki Bahadır Allahverdi oğlu Əhmədov və tibb xidməti polkovnik-leytenantı Arif Aslan oğlu İsmayılov da var.

# Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı qəbul edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Sərəncam verib.**

Sənəddə bildirilir ki, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulub.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnib.

Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradıb. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilib. Bu isə öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə bu Sərəncamla «Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı» təsdiq edilib.

***(Davamı 3-cü səhifədə)***

# «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 687-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

«Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 129; 2001, № 3, maddə 144; 2002, № 5, maddə 240; 2004, № 6, maddə 396; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2009, № 12, maddə 949; 2015, № 11, maddə 1278; 2020, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 543; 2022, № 6, maddə 592) 13-cü maddəsinin dördüncü hissəsinə «müəssisələri» sözündən sonra «və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 may 2023-cü il*

# Azərbaycan Respublikasının səhiyyə işçilərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər «Tərəqqi» medalı ilə təltif edilsinlər:

Ağayev Hafiz Ağalar oğlu
Cəlilov Etibar Yəmli oğlu
Əkbərli Azər Aprel oğlu
Əliyeva Yeganə Agabala qızı
Əsgərov Niyazi Mustafa oğlu
Hüseynova Laləxanım Muxtar qızı
Kərimov Müşfiq İsrafil oğlu
Qurbanov Tərlan Məhəmməd oğlu
Məmmədov Asəf Mayıl oğlu
Məmmədova Sevil Vahid qızı
Nağdalıyev Nəriman Məmməd oğlu
Namazova Hicran Kamal qızı
Paşayeva Aybəniz Abil qızı
Salehova Gülbəniz Qara qızı.

**2.** Azərbaycan Respublikasında səhiyyə sahəsində xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**«Əməkdar həkim»**

Əzizov Fazil Əziz oğlu
Hacıyev Arif Həmzə oğlu
Mehdiyev Əkbər İsmayıl oğlu
Məhərrəmova Frəngiz Əmirxan qızı
Nurəliyeva Aynaxanım Nuri qızı
Soltanov Əhədağa Mirağa oğlu

**«Əməkdar tibb işçisi»**

Bağırova Sürmə Kərim qızı
Frolova Alla Əbdul Axatovna
Qulamova Bahar Vaqif qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 16 iyun 2023-cü il*

# «Heydər Əliyev adına təqaüd»ün təsis edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 (yüz) nəfər tələbə üçün «Heydər Əliyev adına təqaüd» təsis edilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən təqaüd Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına 3000 (üç min) manat məbləğində birdəfəlik verilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 24 iyun 2023-cü il*

# Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər edildi

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı»nın təsdiq edilməsi haqqında» 2014-cü il 24 yanvar tarixli 19 nömrəli, «Aqrar sığorta» informasiya sisteminin Əsasnaməsi»nin və «Aqrar sığorta» informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı»nın təsdiq edilməsi barədə» 2020-ci il 6 iyul tarixli 238 nömrəli, «Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası»nın təsdiq edilməsi haqqında» 2020-ci il 20 oktyabr tarixli 401 nömrəli, «Dövlət informasiya sistemlərinin və ehtiyatlarının «Hökumət buludu»na Keçid Planı»nın təsdiq edilməsi və «Hökumət buludu» ilə bağlı bəzi tədbirlər haqqında» 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli, «Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı»nın təsdiq edilməsi haqqında» 2020-ci il 2 dekabr tarixli 479 nömrəli, «Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası»nın təsdiq edilməsi barədə» 2021-ci il 28 yanvar tarixli 18 nömrəli, «İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi»nin təsdiq edilməsi haqqında» 2021-ci il 13 oktyabr tarixli 308 nömrəli və «COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında» 2021-ci il 27 noyabr tarixli 371 nömrəli qərararlarında dəyişiklik edilməsi barədə Qərar imzalayıb.



Azərbaycan Respublikası Prezidentinin «Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, «Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında» 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, «Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında» 2018-ci il 14 mart tarixli 1885 nömrəli və «Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında» 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə qəbul olunan Qərarda dəyişikliklər edilən sənədlər arasında səhiyyəyə aid olanları da var.

Belə ki, Nazirlər Kabinetinin 2020-ci il 2 dekabr tarixli Qərarı ilə təsdiq edilmiş «Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı»nın 1.3-cü və 2.2-ci bəndlərində, «İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi»nin təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 2021-ci il 13 oktyabr tarixli Qərarının 2-ci hissəsində, həmin Qərarla təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi»nin 5.1-ci bəndində, həmçinin Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - «COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası»nın 5.7-ci bəndində «Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi» sözləri «Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi» sözləri ilə əvəz edilib.

# Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı qəbul edildi

*(Əvvəli 2-ci səhifədə)*

Maliyyə Nazirliyinə Dövlət Proqramının 2023–2024-cü illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində, 2025–2027-ci illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini isə 2024-cü il iyulun 1-dək hazırlayıb Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

Nazirlər Kabineti Dövlət Proqramının Tədbirlər Planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, üç ay müddətində 2023–2024-cü illər üzrə, 2024-cü il sentyabrın 1-dək isə 2025–2027-ci illər üzrə tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı tədbirlər planlarının layihələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirməli və dövlət başçısına məlumat verməlidir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

«Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı»nda səhiyyə ilə bağlı bəzi məsələlər də yer alıb.

Sənədin «Mövcud vəziyyətin təhlili» bölməsində əldə olunmuş nailiyyətlərdən danışılarkən qeyd edilir ki, regionların sosial-iqtisadi inkişafı sahəsində dövlət proqramlarının icrası nəticəsində bölgədə idman obyektləri, mədəniyyət müəssisələri tikilib və ya təmir olunub, müasir standartlara uyğun təhsil və səhiyyə müəssisələri əhalinin istifadəsinə verilib.

«Mövcud çağırışlar» bölməsində bildirilir ki, Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində göstərilən xidmətlərin keyfiyyətinin və əhatə dairəsinin artırılmasına, ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac duyulur. Burada özəl təhsil və səhiyyə müəssisələrinin yaradılması bu sahədə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə də zəmin yaradacaqdır.

Dövlət Proqramında qeyd olunur ki, onun məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdir.

Bu məqsədə nail olmaq üçün 2023–2027-ci illər üçün 11 prioritet istiqamət müəyyənləşdirilib və icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılıb.

«Turizmin inkişafı» prioriteti üzrə sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

«Sosial sektorun inkişafı» prioriteti üzrə əhalinin təhlükəsiz və rahat yaşayışının təmin olunması, kütləvi bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsi, böyüməkdə olan gənc nəsil üçün idman alətlərinin əlçatanlığının təmin edilməsi, əhalinin asudə vaxtlarının səmərəli təşkili üçün layihələrin icrası planlaşdırılır. Özəl sektor tərəfindən sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə özəl təhsil və tibb müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işi aparılacaq.

«İnsan kapitalının inkişafı» prioritet istiqaməti üzrə Naxçıvan Muxtar Respublikasında ali təhsilin keyfiyyətinin artırılması məqsədilə Naxçıvan Dövlət Universiteti ilə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıq gücləndiriləcək, birgə proqramlar təşkil olunacaq, həmçinin ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiqi üzrə layihələr həyata keçiriləcək.

«İnstitusional inkişaf» prioriteti üzrə əmək münasibətləri, məşğulluq, sosial müdafiə, tibb sahələrinə aid fəaliyyətlərin təşkili və dövlət xidmətlərinin inkişaf etdirilməsi məqsədilə bu sahələrdə göstərilən xidmətlər elektronlaşdırılacaq.

Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında da səhiyyəyə, əhalinin sağlamlığının qorunmasına dair bəndlər var.

«Sosial sektorun inkişafı» prioritet istiqaməti üzrə «Özəl təhsil və tibb müəssisələrinin yaradılmasının təşviq edilməsi» bəndinin icrası ilk növbədə özəl təhsil və tibb müəssisələrinin yaradılması üçün təşviqat tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Özəl təhsil və tibb müəssisələrinin fəaliyyətə başlaması ilə əhalinin keyfiyyətli təhsil və tibb xidmətlərinə çıxışının yaxşılaşdırılması yekun nəticə olacaq.

«İnsan kapitalının inkişafı» prioritet istiqamətinin 8.9.4-cü bəndi «Ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiq edilməsi» adlanır. Müvafiq sahədə layihə təkliflərinin hazırlanmasını və layihələrin həyata keçirilməsini nəzərdə tutan bu bəndin icrası ilə ali təhsilin keyfiyyət göstəricilərinin yüksəlməsi gözlənilir.

2023–2027-ci illəri əhatə edən hər iki bəndin əsas icraçı orqanı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, digər icraçıları Elm və Təhsil Nazirliyi və Səhiyyə Nazirliyidir.

«İnstitusional inkişaf» prioritet istiqamətində «Tibb sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi» bəndi tibb müəssisələrində xidmətlərin inkişafına dair layihələrin hazırlanmasını və müvafiq tədbirlərin həyata keçirilməsini ehtiva edir. Yekun nəticədə gözlənti xidmətlərin keyfiyyət səviyyəsinin yüksəlməsidir. Əsas icraçı orqanı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, digər icraçıları İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Səhiyyə Nazirliyi olan bənd 2023–2027-ci illəri əhatə edəcək.

**Bir sıra ölkələrin vətəndaş cəmiyyəti təşkilatları Arazdəyəndə tikiləcək metallurgiya zavodunun həm insanlara, həm də planetimizə potensial zərərli təsirlərinə və baş verə biləcək ekoloji fəlakətə etiraz olaraq bəyanat yayıblar.**

# Həm insanlara, həm planetimizə zərərli təsirləri olacaq potensial ekoloji fəlakətə etiraz haqqında BƏYANAT

Bəyanatda deyilir:

«Vətəndaş cəmiyyəti təşkilatları olaraq, biz, aşağıda imza edən şəxslər, böyük bir metallurgiya zavodunun tikintisinə etirazımızı və dərin narahatlığımızı ifadə edən birgə bəyanat yayırıq. Ermənistan Respublikasının Azərbaycan Respublikası ilə həmsərhəd bölgəsində - Arazdəyəndə tikintisi aparılacaq, Ermənistan və ABŞ-ın birgə layihəsi olan metallurgiya zavodu 16 500 kvadratmetr ərazini əhatə edir və illik istehsal gücünün 180 000 ton olacağı gözlənilir. Təəssüflər olsun ki, bu layihə yeni ekoloji fəlakətə səbəb olacaq və buna görə də biz öz narahatlıqlarımızda həmrəyik.

Bu irimiqyaslı metallurgiya zavodunun yaradılması beynəlxalq səviyyədə qəbul edilmiş standart və prinsiplərə, xüsusən də Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə BMT-nin Avropa İqtisadi Komissiyası Konvensiyasında (Espo Konvensiyası) ifadə edilənlərə açıq şəkildə məhəl qoymur. Espo Konvensiyası ekoloji məsələlərin milli sərhədləri aşdığını ifadə edir və bu məsələlərin transsərhəd bir neçə dövlətə təsir etdiyi halda beynəlxalq danışıqların zəruriliyini vurğulayır.

Azərbaycan tərəfinin razılığı olmadan sərhəddə belə bir zavodun tikintisi transsərhəd kontekstlərdə ətraf mühitə təsirin qiymətləndirilməsini nəzərdə tutan, 1991-ci ildə qəbul olunmuş Espo Konvensiyasının kobud şəkildə pozulması deməkdir. Həm Azərbaycan, həm də Ermənistan bu Konvensiyanı imzalayan dövlətlərdir. Espo Konvensiyasına uyğun olaraq, zavodun ətraf mühitə təsirinin hərtərəfli qiymətləndirilməsi aparılmalıdır. Tikinti ilə bağlı qiymətləndirmə sənədi Azərbaycanın müvafiq qurumları, ekoloji fəallar tərəfindən rayona yaxın ərazidə yaşayan qonşu azərbaycanlıların rəyi nəzərə alınmaqla nəzərdən keçirilməlidir.

Belə bir zavodun tikintisi insanlara və planetimizə zərər verə bilər. Onun geniş təsirlərini, insan sağlamlığı, ətraf mühit və həqiqi dayanıqlılıq üçün yaratdığı təhlükəni nəzərə alsaq, bu, vətəndaş cəmiyyəti üçün «qırmızı xətt» deməkdir.

Metallurgiya zavodunun zəhərli kimyəvi tullantılarının yerli ekosistemə potensial təsirləri çox böyük ola bilər. Bu ekoloji təsir insan sağlamlığına və həyat təhlükəsizliyinə, fauna və floraya, torpağa, havaya və su strukturlarına mütləq təsir göstərəcəkdir. Tullantıların Araz çayına axıdılması çayda yaşayan canlılar və suvarma üçün Araz suyundan istifadə edən iri təsərrüfatlar üçün narahatlıq yaradır. İçməli su təchizatına zərər insan sağlamlığına və su təhlükəsizliyinə zərər deməkdir və bu da sərhəd ərazilərdə yoluxucu xəstəliklərin yayılmasına gətirib çıxara bilər. Böyük ehtimalla bu, həm Azərbaycan, həm də Ermənistan üçün ciddi ictimai səhiyyə böhranı yarada bilər.

Universal Tibbi Təminat üzrə BMT-nin Yüksək Səviyyəli Görüşünün siyasi bəyannaməsinə əsasən, Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyinin həyata keçirilməsi kontekstində BMT Baş Assambleyasının 10 oktyabr 2019-cu ildə qəbul etdiyi Qətnamədə qeyd olunur ki, sağlamlıq davamlı inkişafın sosial, iqtisadi və ekoloji ölçülərinin ilkin şərti, nəticəsi və göstəricisidir. BMT-yə üzv dövlətlər təmiz hava, təhlükəsiz içməli su və sanitariya kimi amilləri sağlamlığın ətraf mühit amilləri kimi tanıyıb. Eyni zamanda, BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Lakin Ermənistan bu ekoloji cinayətləri törətməklə Azərbaycan əhalisinin, o cümlədən region insanlarının hüquqlarını kobud şəkildə pozur. Bununla Ermənistan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusən «Yaxşı səhiyyə və rifah» üzrə 3-cü, «Təmiz su və sanitariya» ilə bağlı 6-cı, «İqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizə»yə dair 13-cü, «Torpaq ekosisteminin mühafizəsi» üzrə 15-ci məqsədlərinin tamamilə əleyhinədir.

Bundan əlavə, Orhus Konvensiyası ətraf mühitlə bağlı məsələlərdə məlumat əldə etmək, ictimaiyyətin iştirakını və ədaləti təmin etməkdə mühüm rol oynayır. Bu konvensiyaya imza atan tərəf olaraq Ermənistan zavodun fəaliyyəti ilə bağlı təsirə məruz qalan icmaların məlumatlara çıxışını, qərarların qəbulu proseslərində əhəmiyyətli iştirakını və ətraf mühitə dəyən zərərin aradan qaldırılması yollarını təmin etməklə öz öhdəliklərini yerinə yetirməlidir. Biz Ermənistandan vətəndaş cəmiyyəti təşkilatları və yerli icmalarla dialoq yaratmasını və onların bu metallurgiya zavodunun tikintisi ilə bağlı qərar qəbuletmə proseslərində fəal iştirak etməsi üçün şərait yaratmasını tələb edirik.

BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri hasilat sənayesi də daxil olmaqla, biznesdə məsuliyyətli davranışı təşviq etmək üçün mühüm çərçivə təmin edir. Bu prinsiplər şirkətlərin insan hüquqlarına riayət etmələri, ətraf mühitə mənfi təsirlərin qarşısının alınması və təsirə məruz qalmış icmalarla şəffaf və inklüziv şəkildə əlaqə yaratmaları zərurətini vurğulayır. Biz Arazdəyəndə metallurgiya zavodunun tikintisi ilə məşğul olan bütün maraqlı tərəfləri öz fəaliyyətlərini bu prinsiplərə uyğunlaşdırmağa və onları əməliyyat təcrübələrinə inteqrasiya etməyə çağırırıq.

Bunu nəzərə alaraq, biz BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ətraf Mühit üzrə Xüsusi Məruzəçisi və BMT-nin Zərərli Maddələr və İnsan Hüquqları üzrə Xüsusi Məruzəçisi kimi müvafiq beynəlxalq təşkilatları bu vəziyyətə reaksiya verməyə və müvafiq tədbirlər görməyə çağırırıq. Ermənistanın davam edən ekoloji pozuntularına son qoyulmalıdır.

Biz həmçinin Amerika Birləşmiş Ştatlarını bu riskləri qəbul etməyə və Arazdəyəndə adı çəkilən metallurgiya zavodunun tikintisinə dəstəyi dayandırmağa çağırırıq.

Bundan əlavə, biz Ermənistandakı vətəndaş cəmiyyəti təşkilatlarını, xüsusən də ictimai səhiyyə və vərəmlə mübarizədə fəal iştirak edən təşkilatları təcili tədbirlər görməyə və bu zavodun yaradılmasına etiraz etməyə çağırırıq. Onun tikintisi, şübhəsiz ki, Ermənistanın öz ekoloji vəziyyətinə də ciddi mənfi təsir göstərəcək.

İmzalar:

1. Məryəm Daneş, Vaşinqton və Li Universiteti, ABŞ
2. Samir Sah, Vərəm üzrə Vətəndaş Cəmiyyətinin məsləhətçisi, Birləşmiş Krallıq
3. Ezio Tavora dos Santos Filho, «REDE-TB» təşkilatı, Braziliya
4. Cos Maria Di Bello, GEP Fondu, Argentina
5. Umarov Rüstamcon, ətraf mühit üzrə aktivist, Hiroşima Universitetinin tələbəsi, Yaponiya
6. Svetlana Doltu, AFI QHT, Moldova Respublikası
7. Olya Klimenko, «TBPeopleUkraine» təşkilatı, Ukrayna
8. İnna Gavrilova, İctimai Səhiyyə Alyansı, Ukrayna
9. Sergey Uçayev, «ISHONCH VA HAYOT» QHT, Özbəkistan
10. Nikoloz Mirzaşvili, TBpeople şəbəkəsi, Gürcüstan
11. Sok Çamreun Çoub, Xmer İIV/QİÇS QHT Alyansı (KHANA), Kamboca
12. Stiven Anquva Şikoli, Vərəmə Qalib Gəlmiş Şəxslərin Şəbəkəsi, Kenya
13. Kolins Major Kinyuru, Pamoca Vərəm qrupu, Keniya
14. Cozef Kilonzo, BISC, Keniya
15. Elçin Muxtarlı, Azərbaycan Vərəm əleyhinə QHT Koalisiyası
16. Piter Nqola, «Vot Gənclərin İnkişafı Layihələri» icma əsaslı təşkilatı, Keniya
17. Çarlz Qvist, «Carepal» Fondu, Qana
18. Pərvanə Vəliyeva, «Sağlamlığa Xidmət» İctimai Birliyi, Azərbaycan
19. Çingiz Ramazanlı, TBpeople Azərbaycan, «Vərəmsiz Gələcəyə Doğru» İctimai Birliyi, Azərbaycan
20. Prof.Dr.Zeki Kılıçaslan, «İstanbul Vərəm Savaş Dərnəyi», Türkiyə
21. Dr. Şemsettin Küzeci, Kərkük Mədəniyyət Assosiasiyasının prezidenti, Türkiyə
22. Abass A Kamara, könüllü, Syerra-Leone Qızıl Aypara Cəmiyyəti, Syerra-Leone
23. Mohmad Hüseyn Lone, İnsan hüquqları üzrə aktivist, İsveçrədə yerləşən Beynəlxalq İnsan Hüquqları Komissiyasının rəsmi könüllüsü, Hindistan
24. Kordeliya Adamu, Afrika Ətraf Mühit və Sağlamlıq üzrə İnkişaf Şəbəkəsi, Nigeriya
25. Germain Marius Hepi, diplomat, İsveçrəKamerun OSER Humanitar təşkilatının prezidenti, Kamerun
26. Norman Kaqiso Matitinq, Vərəmə Qalib Gəlmiş Şəxslərin Şəbəkəsi, Botsvana
27. Nişant Çavan, İctimai səhiyyə üzrə müstəqil konsultant, Hindistan
28. Filiz Duyar Ağca, Türk Toraks Dərnəyi, Vərəm üzrə İşçi qrupu, Türkiyə
29. Haşim Əbdül Halim, Qərbi Benqal Hökumətinin Səhiyyə və Ailə Rifahı Departamenti, Hindistan
30. Kinz Eman, «Stop Vərəm Tərəfdaşlığı Pakistan», Pakistan
31. Zişan Əhmәd, Puncab Əyaləti üzrə Vərəmə Nəzarət Proqramı, Pakistan
32. Mohmad Hüseyn, Banqladeşin Allergiya və Kliniki İmmunologiya İnstitutu (IACIB), Banqladeş».

# İnsan sağlamlığına təhlükə törədən qidaların reyestri yaradılacaq

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası»nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

Qərar «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Yeyinti məhsulları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, «Yeyinti məhsulları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə» 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi daşıyır.

Sənədə əsasən, «Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası» təsdiq edilib.

Qaydalarda bildirilib ki, bu sənəd «Qida təhlükəsizliyi haqqında» Qanunun 10.4-cü maddəsinə uyğun olaraq hazırlanıb və qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların istifadəçilər üçün açıq reyestrinin aparılması qaydasını müəyyən edir.

Reyestr insanların həyat və sağlamlığının, habelə istehlakçıların hüquqlarının qorunması üçün qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən hallar barədə məlumatların vahid mənbədə toplanması, emalı, axtarışı, təhlili, ötürülməsi və istifadəçilərin məlumatlandırılması məqsədilə aparılacaq.

Dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan reyestrdəki məlumatlar istifadəçilər üçün açıq olacaq, ondan istifadə və məlumatların əldə edilməsi ödənişsiz olacaq.

Reyestrin aparılmasını təmin edən, reyestr üzərində sahiblik və istifadə hüququnu, onun operatoru funksiyalarını həyata keçirən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyidir.

İstifadə rahatlığı, funksionallıq və davamlı inkişaf, operativlik, sərbəstlik, şəffaflıq prinsipləri əsasında fəaliyyət göstərən Reyestrə qida məhsulunun adı, onun qısamüddətli və ya uzunmüddətli (kumulyativ toksik təsiri daxil olmaqla) zərərinin təsvirinə və sübutuna dair məlumat, qida təhlükəsizliyi göstəricisi və onun qida məhsulunu təhlükəli edən həddi, qadağan olunmuş inqrediyentin adı, istinad edilən texniki normativ hüquqi aktların rekvizitləri, təhlükəli qida məhsulları barədə məlumatlar daxil edilir.

Reyestrdəki məlumatlar istinad üçün rəsmi mənbə hesab olunur.

# Milli Məclisin növbədənkənar sessiyasının iclaslarında səhiyyə məsələləri müzakirə edilib

**İyun ayında Milli Məclisin 2023-cü ilin növbədənkənar sessiyasında spiker Sahibə Qafarovanın sədrliyi ilə iclasları keçirilib.**

Parlamentin bir plenar iclasında gündəlikdəki məsələlərin müzakirəsi zamanı Milli Məclisin sədri ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olmuş və mahiyyətcə bir-birinə bağlı olan 5 məsələni diqqətə çatdırıb. Bunlardan biri də «Sanitariya-epidemioloji salamatlıq haqqında», «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında», «Yanğın təhlükəsizliyi haqqında», «Milli arxiv fondu haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» və «Hərbi vəzifə və hərbi xidmət haqqında» qanunlarda (üçüncü oxunuş) dəyişikliklər edilməsi barədə qanun layihəsidir.



Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bundan əvvəl təqdim edilən layihələrə uyğunlaşdırma xarakteri daşıyan bu qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, əvvəlki oxunuşdan sonra sənəddə heç bir dəyişiklik aparılmayıb və olduğu kimi səsə qoyulmasını xahiş edib.

Milli Məclisin sədri qanun layihəsinə 4 komitədə də baxıldığını bildirib.

Beləliklə, sənəd barədə Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Əziz Ələkbərov Mədəniyyət komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin rəylərini səsləndiriblər.

Deputat Tahir Kərimlinin fikirləri dinlənildikdən sonra üçüncü oxunuşda təqdim olunan 5 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Tibbi sığorta haqqında» Qanunda dəyişikliklə bağlı məlumat verib. O bildirib ki, qanunun 2.1-ci maddəsinə «Mülki Məcəlləsindən,» sözlərindən sonra «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Azərbaycan Respublikasının Qanunundan,» sözləri əlavə edilir. Sənəd ölkə Prezidentinin 2019-cu il 28 noyabr tarixli 1616 nömrəli müvafiq Sərəncamının icrası məqsədilə hazırlanıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin növbədənkənar sessiyasının daha bir iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov gündəlikdə duran «Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin birinci oxunuşundan sonra komitəyə heç bir irad və təklif daxil olmadığını bildirib və həmkarlarından qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyi xahiş edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edilən qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. O, bildirib ki, layihə səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirləri və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarının icrasını təmin etmək məqsədilə hazırlanıb.

Qeyd edilib ki, layihədə dünya təcrübəsi əsas götürülərək dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınması nəzərdə tutulub. Dərman vasitələrinin sadələşdirilmiş ekspertizanın nəticələrinə əsasən, beynəlxalq qeydiyyatı tanınaraq onların dövlət reyestrinə daxil edilməsi üçün tələb olunan sənədlərin sayı azaldılıb, sadələşdirilib və qeydiyyat prosedurlarının müddətləri qısaldılıb.

Dərman vasitələrinin Azərbaycana gətirilməsi məqsədilə qeydiyyatı üçün müraciət edə biləcək tərəflərin dairəsi genişləndirilib və bütövlükdə qeydiyyat prosesi sürətləndirilib.

Nəzərə çatdırılıb ki, sənəddə dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron təqib və izləmə sisteminin tətbiq edilməsi, dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi nəzərdə tutulub. Layihəyə əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin tənzimlənən qiymətlərdən yuxarı qiymətlərlə satılması qadağan olunur.

Bildirilib ki, ümumilikdə qanun layihəsində 7 istiqamət üzrə dəyişikliklər nəzərdə tutulub, 4 yeni maddənin əlavə olunması və 11 maddə üzrə 86 dəyişikliyin edilməsi təklif olunur. Dəyişikliklərin qəbul edilməsi dərmanların dövlət qeydiyyatı prosedurunun optimallaşdırılmasına, ölkə ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin artmasına, ölkədə yarana biləcək dərman qıtlığının aradan qaldırılmasına, o cümlədən dərman vasitələrinin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsinə səbəb olacaq.

Komitə sədrləri Tahir Mirkişili, Qənirə Paşayeva, deputatlardan Tahir Kərimli, Etibar Əliyev, Azər Badamov, Razi Nurullayev, Rəşad Mahmudov çıxış edərək, məsələ barədə fikirlərini açıqlayıblar, bəzi təkliflərini səsləndiriblər.

Parlamentin komitə sədri Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini Rasim İsmayılov çıxışlara münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq, birinci oxunuşda qəbul edilib.

# Milli Məclisdə ÜST nümayəndələri ilə görüş olub

**Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Ofisinin Milli Vərəm Proqramının qiymətləndirmə üzrə nümayəndə heyəti ilə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, ölkəmizdə vərəmlə mübarizədə əldə olunan nailiyyətlərdən söz açan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Azərbaycan səhiyyəsində aparılan islahatlardan danışıb, səhiyyənin aktual məsələlərinə Milli Məclisdə həssaslıqla yanaşıldığını diqqətə çatdırıb. O, bu sahədə parlamentdə dinləmələrin daim keçirildiyini, müzakirələrin aparıldığını, qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib.



Səhiyyə komitəsinin üzvləri Soltan Məmmədov, Sədaqət Vəliyeva və Məlahət İbrahimqızı ÜST ilə uğurlu əməkdaşlıqdan söz açıblar, bu səmərəli işbirliyinə görə qonaqlara təşəkkür ediblər. Deputatlar bildiriblər ki, ÜST vərəmlə mübarizədə hər zaman öz dəstəyini nümayiş etdirib.

Sonra görüşdə ÜST Avropa Regional Ofisinin Milli Vərəm Proqramının qiymətləndirmə üzrə nümayəndə heyətinin üzvləri Sayohat Hasanova, Cəvahir Süleymanova, Andrei Mosneaqa, Kristina Selan, Askar Yedilbayev, Oqtay Gözəlov, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova və ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri Rafiq Bayramov ÜST-nin tövsiyə və tələblərinə ölkəmizdə ciddi əməl olunmasını, səhiyyə sistemində aparılan islahatları, icbari tibbi sığortanın fəaliyyətini yüksək qiymətləndiriblər. Onlar vərəmin diaqnostikası, müalicəsi və profilaktika tədbirləri ilə bağlı fikirlərini bölüşüblər.

Görüşdə səhiyyənin bəzi aktual məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# AŞPA sessiyasında Azərbaycan səhiyyəsində görülən işlərdən danışılıb

**İctimai səhiyyə ilə bağlı fövqəladə vəziyyət və bu sahəyə vahid yanaşma qloballaşan dünya üçün son dərəcə vacibdir. Azərbaycan ictimai səhiyyədə fövqəladə halların idarə edilməsində çoxtərəfliliyin və səhiyyəyə vahid yanaşmanın vacibliyini qəbul edir. Ölkə səhiyyə infrastrukturuna, o cümlədən müasir qurğulara və qabaqcıl tibbi avadanlıqlara sərmayə qoyur, xəstəliklərə nəzarət, onların qarşısının alınması və cavab tədbirləri üzrə Milli Mərkəzin yaradılması nəzarət imkanlarını gücləndirir.**




AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin üzvü Könül Nurullayeva qurumun yay sessiyası çərçivəsində «İctimai səhiyyədə fövqəladə vəziyyət: çoxtərəfliliyə və səhiyyəyə vahid yanaşma ehtiyacı» adlı məruzənin müzakirələri zamanı çıxışında deyib.

Millət vəkili bildirib ki, Azərbaycan yoluxucu xəstəliklərin səmərəli idarə olunması üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir, məlumatları bölüşür və ən yaxşı təcrübələri qəbul edir. Bu tədbirlər Azərbaycanın ictimai səhiyyə ilə bağlı fövqəladə halların həllinə hərtərəfli və çoxtərəfli yanaşmaya sadiqliyini nümayiş etdirir.

Azərbaycanlı deputat səhiyyə sistemlərinə sərmayə qoyulmasının, bu sahədəki infrastrukturun gücləndirilməsinin, tibbi avadanlıqların mövcudluğunun təmin edilməsinin və tibb işçilərinin potensialının artırılması üçün adekvat maliyyə ayrılmasının vacibliyini qeyd edib. Bu cür tədbirlərin böhran dövrlərində əhalinin sağlamlığını qorumağa imkan verəcəyini deyib. O həmçinin xəstəliklərə nəzarət və erkən xəbərdarlıq sistemlərində qlobal əməkdaşlığı gücləndirməyin vacibliyini diqqətə çatdırıb.

Məlumat və qabaqcıl təcrübələri paylaşmaqla epidemiyaların vaxtında aşkarlanacağını, onlara daha tez reaksiya veriləcəyini deyən K.Nurullayeva qeyd edib ki, yoluxucu xəstəliklər haqqında maarifləndirməni təkmilləşdirmək, eləcə də səmərəli müalicə üsullarını inkişaf etdirmək üçün tədqiqatlara üstünlük verilməlidir. Bir sözlə, elmi əməkdaşlığı və tədqiqat nəticələrinin paylaşılmasını təşviq etməklə tibbi müdaxilələrin inkişafını sürətləndirmək, onlara ehtiyacı olanlara ədalətli çıxışı təmin etmək olar.

**Şəhla AĞALAROVA,**
**AZƏRTAC-ın xüsusi müxbiri**
*Strasburq*

# «Müasir kardiologiya: nailiyyətlər və innovativ yeniliklər»

## *Bakıda bu mövzuda beynəlxalq elmi-praktik konqres keçirilib*

«Heydər Əliyev İli» çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən silsilə tədbirlər təşkil olunur. Bunlardan daha biri — nazirliyin Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutu (ETKİ) tərəfindən «Müasir kardiologiya: nailiyyətlər və innovativ yeniliklər» mövzusunda beynəlxalq elmi-praktik konqres keçirilib.

Tədbirin açılış mərasimində Səhiyyə Nazirliyinin, Milli Məclisin Səhiyyə komitəsinin, Nərimanov Rayon İcra Hakimiyyətinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəhbər işçiləri, həmçinin Azərbaycan, Türkiyə, Rusiya, İsrail, Almaniya, Gürcüstan və Litvanın tanınmış elm xadimləri iştirak ediblər.

İlk olaraq Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra ETKİ-nin 45 illik yubileyi ilə əlaqədar hazırlanmış sənədli film nümayiş olunub.

Səhiyyə naziri Teymur Musayevin adından tədbir iştirakçılarını salamlama müraciəti oxunub.

ETKİ-nin direktoru Gülnaz Dadaşova öz çıxışında Ulu Öndərin həyat və fəaliyyətinin gələcək nəsillərə çatdırılmasının vacibliyini qeyd edib, Heydər Əliyevin təşəbbüsü ilə yaradılan ETKİ-nin tarixi yoluna nəzər salıb və görülən mühüm işlərdən bəhs edib. Tədbir haqqında məlumat verən ETKİ-nin direktoru beynəlxalq konqresin ölkəmizdə kardiologiyanın inkişafına böyük töhfə verəcəyini bildirib.

Digər çıxışçılar Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən, konqresin əhəmiyyətindən danışıblar.

Dörd yüzə yaxın həkimin iştirakı ilə keçirilən beynəlxalq konqresdə kardiologiyanın aktual elmi və praktiki aspektlərinə dair məruzələr dinlənilib, mövzu ilə bağlı müzakirə aparılıb və suallar cavablandırılıb. Həmçinin konqres çərçivəsində «Kardiak anatomiya», «EKQ», «EXO KQ» və «CPR» kursları keçirilib.

Beynəlxalq elmi-praktik konqres Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 23 DTT kredit balı ilə qiymətləndirilib. Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

# Azərbaycanda hemofiliyadan əlillik hallarının azalmasına nail olunub

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Ümumdünya Hemofiliya Federasiyasının (WFH) prezidenti Sezar Qarrido ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı səhiyyə naziri Teymur Musayev Azərbaycanda hemofiliyalı xəstələrin müalicəsi ilə bağlı bir sıra mühüm tədbirlər görüldüyünü diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyev hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısının göstərilməsi ilə bağlı bir sıra tapşırıqlar verib.

Həmçinin 2005-ci ildə bu sahədə Dövlət Proqramı qəbul olunub, 2006-cı ildən etibarən isə ölkəmizə qan laxtalandırıcı faktor preparatları gətirilir və pasiyentlərə dövlət hesabına təqdim edilir.

Teymur Musayev vurğulayıb ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması nəticəsində həmin xəstəliyin müalicəsinin müasir səviyyədə təşkili mümkün olub. Ölkədə hemofiliyalı xəstələrin müalicəsi Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın daim nəzarətində və diqqətindədir.

Azərbaycanın səhiyyə naziri həmçinin qeyd edib ki, hemofiliya xəstəliyi multidisiplinar yanaşma tələb etdiyinə görə, onun müalicəsi kompleks şəkildə aparılmalıdır.

«Ölkəmizdə görülən tədbirlər nəticəsində hemofiliyalı xəstələrin normal həyat fəaliyyətinin təmin edilməsinə, həmin xəstəlikdən əlillik hallarının azaldılmasına nail olunub», — deyə Teymur Musayev fikirlərinə yekun vurub.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən Ümumdünya Hemofiliya Federasiyasının prezidenti Azərbaycanda hemofiliyalı xəstələrin müalicəsi ilə bağlı görülən işləri yüksək qiymətləndirib. Sezar Qarrido WFH tərəfindən Səhiyyə Nazirliyi və ölkəmizin digər səhiyyə qurumları ilə birgə Bakıda qanın laxtalanma pozulmasından əziyyət çəkən insanların maraqlarını qorumaq məqsədilə keçirilən konfransın vacibliyini qeyd edib.

Görüşdə Ümumdünya Hemofiliya Federasiyasının Azərbaycan Səhiyyə Nazirliyi ilə birgə layihələrinin reallaşdırılması barədə faydalı müzakirələr aparılıb.

# Səhiyyə Nazirliyində Moldova, Tacikistan və Monteneqro səhiyyə sistemlərinin rəhbər şəxsləri ilə görüş keçirilib

**Azərbaycanın Səhiyyə Nazirliyində Moldovanın səhiyyə naziri Alla Nemerenko, Monteneqro Səhiyyə Nazirliyinin dövlət katibləri Sladyana Çoriç və Vladimir Obradoviçlə görüş keçirilib. Görüşdə həmçinin Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional ofisinin Ölkə səhiyyə siyasəti və sistemləri üzrə direktoru Nataşa Azzopardi-Muskat, Moldovanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Aleksandr Yesaulenko və Tacikistanın maliyyə nazirinin müavini Sərvər Kurbaniyon iştirak ediblər.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Teymur Musayev həmçinin səhiyyə sahəsində mövcud olan əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildirib: «Eyni zamanda, ölkələrimizin tibb mütəxəssislərinin davamlı tibb təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur».

Sonda Azərbaycanın səhiyyə naziri ölkələrimizin səhiyyə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da yeni müstəvidə uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Öz növbəsində Alla Nemerenko, Sladyana Çoriç və Vladimir Obradoviç təmsil etdikləri ölkələrin Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiklərini bildiriblər. Onlar bütün sahələrdə olduğu kimi, təşəkkürünü ifadə edib.



Görüşdə çıxış edən ÜST-nin Avropa üzrə regional ofisinin Ölkə səhiyyə siyasəti və sistemləri üzrə direktoru Nataşa Azzopardi-Muskat Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycanla əməkdaşlığının çox uğurlu olduğunu vurğulayıb.

ÜST Avropa regional ofisinin rəsmisi COVID-19 peyvəndlərinin digər ölkələrə göndərilməsi kimi humanist addıma görə Azərbaycan rəhbərliyinə səhiyyə sahəsində də əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıblar. Eyni zamanda, qonaqlar səhiyyədə müasir idarəetmə yanaşmalarının tətbiqi, tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi, ikili diplom proqramının hazırlanması, səhiyyə sistemlərinin rəqəmsal transformasiyası üzrə əməkdaşlığın qurulması kimi aspektlərə toxunublar.

# Səhiyyə naziri tibb işçilərini təltif edib

**Səhiyyə naziri Teymur Musayev «Tibb işçilərinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilməsi haqqında» əmr imzalayıb.**

Sənədə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»nin 14.4-cü bəndinə uyğun surətdə, bir qrup tibb işçisi səhiyyə sahəsində qüsursuz və səmərəli fəaliyyətlərinə görə və 17 İyun — Azərbaycan Respublikası Tibb İşçilərinin Peşə Bayramı Günü ilə əlaqədar olaraq Səhiyyə Nazirliyinin **«Səhiyyə əlaçısı»** döş nişanı ilə təltif ediliblər.

**Əliyev İbrahim Nadim oğlu,** Med Era Hospital MMC. Baş direktor

**Məcidova Səbinə Romel qızı,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Direktor müavini

**Məmmədbəyli Aygün İslam qızı,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Baş həkim

**Abdıyeva Yazgül Cahangir qızı,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Elmi-məlumat və təşkilati-metodik bölmənin müdiri

**Balayeva Ruhəngiz Niyazi qızı,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Onko-oftalmoloji bölmənin müdiri

**İbadov Samir Əlixas oğlu,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Masallı Filialı. Şöbə müdiri

**Həsənov Elçin Elman oğlu,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Həkim anestezioloq-reanimatoloq

**Hüseynov Müzəffər Aydın oğlu,** Respublika GEM. Xəbərdaredici Sanitariya nəzarət bölməsinin müdiri

**Məmmədova Nəzakət Təmraz qızı,** Səbail rayon GEM. Epidemiologiya şöbəsinin müdiri

**İmamverdiyeva İrina Tofiq qızı,** «Bakı Şəhər Herontoloji Mərkəzi». Həkim-oftalmoloq

**Əliyeva Arzu Qabil qızı,** K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu. Həkim anestezioloq-reanimatoloq

**Mürsəlov Mürsəl Fərhad oğlu,** Sanator-Kurort Reabilitasiya Mərkəzi. Baş direktor

**Axundova İradə Mirsaab qızı,** Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu. Direktor

**Bədəlov Rəşid Kamil oğlu,** Professor Y.Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Sanatoriyası. Direktor

**Əliyeva Günel Teymur qızı,** Mediland Hospital. Baş həkim

**Məmmədova Bibixanım Həsən qızı,** Mediland Hospital. Həkim-ümumi cərrah

**Vəzirov Rəşid Şamil oğlu,** Respublika Diaqnostika Mərkəzi. Baş direktor

**Səmədov Elgün Nurulla oğlu,** «Bona Dea» MMC. Həkim-ümumi cərrah

**Allahyarova Pərvin Kamil qızı,** Bakı Sağlamlıq Mərkəzi, Nevrologiya şöbəsi. Həkim-nevroloq

**Məmmədov Famil Möhübbət oğlu,** Respublika QİÇS-lə Mübarizə Mərkəzi. Direktor

**Qarayeva Yaqut Fəxrəddin qızı,** TƏBİB. Tibbi xidmətlərin inkişafı departamentinin rəhbəri

**İbrahimli Hikmət İsfəndiyar oğlu,** İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi. Tibbi planlama departamentinin rəhbəri

**Məhərrəmbəyli İsrail Şəmşəd oğlu,** Azərbaycan Tibb Universiteti, II Müalicə-profilaktika fakültəsi. Dekan

**Həsənov Ədalət Bəybala oğlu,** «Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi» PHŞ. Baş direktor

**Zeynalov Vüqar Teyyub oğlu,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Yanıq Mərkəzinin Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsi. Həkim anestezioloq-reanimatoloq

**Bəşirova Kəmalə Pirməmməd qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Yanıq Mərkəzinin Poliklinika şöbəsi. Həkim-terapevt

**İsmayılova Nəcibə Əbdül qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Fizioterapiya şöbəsi. Müalicə bədən tərbiyəsi üzrə təlimatçı

**Rəhimova Kəmalə Xuduş qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Dəstək Xidmətləri şöbəsi Təsərrüfat bölməsi. Təsərrüfat bacısı (Cərrahiyyə)

**Alməmmədov Laçın Talıb oğlu,** «Təcili Yardım Avtobazası». Sürücü

***(Davamı səhifə 10-da)***

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional ofisi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ilə birgə Bakıda müasir səhiyyənin keyfiyyət və davamlılığının prioritetləri, xəstəxanaların gələcəyi ilə bağlı yüksək səviyyəli regional görüş keçirib.**

# Bakıda Avropa və Mərkəzi Asiya xəstəxanalarının gələcəyi müzakirə olunub




Səhiyyə Nazirliyi mətbuat xidmətinin bildirdiyinə görə, tədbir ÜST-nin Avropa Regionunda, xüsusən də Şərqi Avropa və Mərkəzi Asiyadakı xəstəxanaların üzləşdiyi başlıca çağırışları müzakirə etmək üçün 200-dən çox hökumət nümayəndəsini, xəstəxanaların tibb işçilərini və tərəfdaşları bir araya gətirib.

«Məqsədə uyğun xəstəxanalar: müasir səhiyyənin tələblərinə cavab vermək üçün keyfiyyət və davamlılığın prioritetləşdirilməsi» mövzusuna həsr olunan toplantı ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ÜST-nin Azərbaycandakı ölkə ofisi ilə birgə həyata keçirdiyi layihə çərçivəsində baş tutub.

Tədbirdə açılış nitqi ilə çıxış edən **səhiyyə naziri Teymur Musayev** beynəlxalq görüşün mahiyyətinin və məqsədlərinin müasir dövr üçün aktuallığını yüksək qiymətləndirib. Bu il Azərbaycanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyini xatırladan nazir ölkəmizin ÜST ilə uğurlu əməkdaşlığının əsasını Ulu Öndərin qoyduğunu vurğulayıb: «Milli səhiyyəmizin əldə etdiyi nailiyyətlərin əksəriyyəti üçün zəmin məhz Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə, onun şəxsi iştirakı ilə yaradılıb».

Səhiyyə naziri son 15 il ərzində Azərbaycan milli səhiyyə sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində, o cümlədən infrastruktur, insan kapitalı və bu sahənin modernləşdirilməsi üzrə mühüm işlər görüldüyünü diqqətə çatdırıb:

«Bu müddət ərzində 700-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı təmir olunub, müasir avadanlıqlarla, səhiyyə texnologiyaları ilə təchiz edilib. Peşəkar tibbi kadr potensialının formalaşdırılması və inkişafında mühüm nailiyyətlər əldə olunub. Aparıcı ali tibb təhsili ocağı olan Azərbaycan Tibb Universitetinin tədris planı beynəlxalq standartlara uyğunlaşdırılıb. 2011-ci ildən ali tibb təhsilinin ikinci pilləsi kimi rezidentura proqramına start verilib. Eyni zamanda, müalicə-profilaktika mərkəzlərində vətəndaş amili prioritet məqsədə çevrilməklə, səhiyyənin paradiqmasını yenidən qiymətləndirmək üçün böyük imkanlar yaranıb. Artıq ilkin mərhələ uğurlu nəticələrlə həyata keçirilməkdədir».

2020-ci ildə Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə universal tibbi əhatəyə doğru mühüm addım atıldığını söyləyən Teymur Musayev onun tətbiqinin COVID-19 pandemiyasının başlanğıcı ilə eyni vaxta təsadüf etdiyini xatırladıb. Qeyd edib ki, koronavirus pandemiyası zamanı səhiyyə sistemlərində bir çox həssas nöqtələr ortaya çıxdı. Bu sahədəki son fövqəladə hal zamanı ÜST-nin həlledici və strateji rolu bir daha təsdiqləndi.

Teymur Musayev yeni növ koronavirus infeksiyası ilə mübarizə zamanı əldə olunan təcrübədən də danışıb: «ÜST-nin COVID-19-u pandemiya elan etməsindən qısa müddət sonra Azərbaycan hökuməti pandemiya ilə mübarizədə bütün dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək üçün İşçi Qrupu yaratdı. Virusun yayılmasının qarşısını almaq üçün məhdudiyyətlər qoyuldu və effektiv mübarizə tədbirləri həyata keçirildi. Bir neçə ay ərzində COVID diaqnostika laboratoriyalarının sayı 42-yə yüksəldi. Çox qısa müddətdə 11 modul tipli xəstəxana tikildi. Həmçinin insan resursları səfərbər edildi, həkim və tibb bacıları personalı üçün intensiv təlimlər keçirildi, xəstəxanalar müasir tibbi avadanlıq və dərman vasitələri ilə təchiz edildi. Qazanılan bir təcrübə də səhiyyənin rəqəmsallaşdırılmasına təcili ehtiyacdır. COVID-19 pandemiyası səhiyyə də daxil olmaqla bir çox xidmətlərin mütərəqqi İT həlləri tətbiq edilməklə rəqəmsal transformasiyasını gücləndirdi», — deyə nazir vurğulayıb.

Səhiyyə sistemlərin və dünya iqtisadiyyatının pandemiya rejimindən pandemiyadan sonrakı bərpaya tədricən keçidini vurğulayan Teymur Musayev səhiyyə sahəsində son fövqəladə hallar zamanı ÜST-nin həlledici və strateji rolunun bir daha təsdiqləndiyini qeyd edib.

«Bu tədbir dünyada ilkin səhiyyə xidmətlərinin gücləndirilməsinə xüsusi ehtiyac olduğu bir vaxtda keçirilir. İlkin səhiyyə, stasionar və ambulator müalicələr üçün davamlı və sürətli vahid rəqəmsal platformaya transformasiya, səhiyyə sistemlərində müasir menecmentin tətbiqi olduqca aktualdır. İnanıram ki, bugünkü tədbir səhiyyə sistemlərinin gələcək ictimai sağlamlıq məsələləri üçün funksionallığı baxımından mühüm addım olacaq, real həllərin işlənib hazırlanması və innovativ gələcəyə baxışının formalaşdırılması üçün böyük fayda verəcək», — deyə nazir fikrini tamamlayıb.

Sonra **ÜST-nin Avropa üzrə Regional direktoru Hans Henri Klügenin** tədbir iştirakçılarına ünvanladığı videomüraciəti nümayiş olunub.



**ÜST-nin Avropa üzrə regional ofisinin Ölkə səhiyyə siyasəti və sistemləri departamentinin direktoru Nataşa Azzopardi-Muskat** öz çıxışında hər bir xəstəxananın xüsusi və unikal olduğunu söyləyib: «Xəstəxana bizim üçün sadəcə xidmət göstərilən bina deyil. Xəstəxana aid olduğu cəmiyyətin bir hissəsidir. Bura insanların hər gün gəldiyi iş yeridir. Bura ailələrin yaxınlarının sağalacağına, özünü daha yaxşı hiss edəcəyinə ümid edərək gəldiyi məkandır.

Bütün bunlarla yanaşı, xəstəxanalar Avropa regionunda səhiyyə sisteminin transformasiyasının əsas hərəkətverici qüvvəsi rolunu oynayır».

Beynəlxalq tədbirdə **ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı** xəstəxanalar sahəsində transformativ dəyişikliyin əhəmiyyətini vurğulayıb: «Xəstəxanalar səhiyyə sisteminin ayrılmaz tərkib hissəsidir. Bizim xəstəxanaların problemlərini həll etməyə yönələn səylərimiz, habelə inkişaf imkanlarına dəstəyimiz olduqca vacibdir. Bu görüş də öz növbəsində Avropadakı xəstəxanaların gələcəyini birgə formalaşdırmaq üçün ekspertləri və maraqlı tərəfləri bir araya gətirməkdə platforma rolunu oynayır».

ÜST-nin Azərbaycan Respublikasının səhiyyə sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq qurum olduğunu xatırladan **TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** bildirib ki, ölkəmiz bu təşkilata 1992-ci ildə — Azərbaycanın müstəqilliyini yeni bərpa etdiyi, digər sahələr kimi, səhiyyə sahəsində də problemlərin olduğu vaxtda qəbul edilib: «Həmin dövrdə xüsusilə vərəm, malyariya, difteriya, ana və uşaq sağlamlığının qorunması, təchizat və digər məsələlərdə çatışmazlıqlar var idi. Həmin illərdə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə mühüm islahatlar başladı və ÜST ilə əməkdaşlığımız quruldu». V.Qurbanov xəstəxanaların səhiyyə sistemində mühüm rol oynadığını, onların fəaliyyətini yeni tələblərə uyğunlaşdırmaq istiqamətində davamlı işlər görüldüyünü bildirib.

Görüşdə həmçinin Moldova Respublikasının səhiyyə naziri Alla Nemerenko, Bosniya və Herseqovinanın səhiyyə və sosial işlər naziri Alen Şeraniç, Yunanıstanın səhiyyə nazirinin müavini Mina Qaqa çıxış edərək, mövzu ilə bağlı fikirlərini bölüşüb, öz ölkələrinin təcrübəsindən danışıblar.

Üçgünlük tədbirdə xəstəxanaların üzləşdiyi çağırışlar və bu sahədə mövcud imkanlar, tibb müəssisələri üçün gələcək transformasiya, ekoloji cəhətdən dayanıqlı xəstəxanaların yaradılması, rəqəmsallaşma, insan resurslarının optimallaşdırılması, xəstəxanalara effektiv rəhbərlik və idarəetmə, eləcə də xəstəxana transformasiyasını ilkin səhiyyəyönümlü sistemlərə yönəltmək kimi bir çox mövzular müzakirə olunub.

Tədbirin Azərbaycanın səhiyyə sisteminə, onun yeni inkişaf səviyyəsinə keçidinə həsr olunan son günü müzakirələrdə əsas diqqət ölkəmizin bu sahədəki xüsusi ehtiyaclarının müəyyənləşdirilməsinə, dəstək və həll yolları göstərilməsində ÜST-nin rolunun müəyyən olunmasına yönəldilib. Yerli və beynəlxalq iştirakçıların, o cümlədən ÜST ekspertlərinin fəal iştirakı ilə baş tutan bu sessiyada xəstəxanalar sahəsində ölkənin səhiyyə ehtiyaclarının həllinə hərtərəfli və birgə yanaşma müzakirə edilib. Milli Məclisin və ölkənin səhiyyə qurumlarının təmsilçiləri bu sahədə son illər atılan addımlar və əldə edilən nəticələri, eləcə də gələcəyə dair baxışlarını tədbir iştirakçıları ilə bölüşüblər.

Eyni zamanda, ÜST-nin ölkənin səhiyyə sisteminin dəstəklənməsində əsas partnyorları sırasında olan USAID və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin iştirakı ilə birgə layihələr barəsində panel müzakirəsi keçirilib.

# Teymur Musayev: «105 il ərzində Azərbaycan səhiyyəsi şərəfli və çətinliklərlə dolu bir yol keçib»

**Ümummilli Lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Tibb İşçilərinin Peşə Bayramı ilə əlaqədar səhiyyə naziri Teymur Musayev, Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov, habelə tibb ictimaiyyətinin nümayəndələri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirələrini ehtiramla yad ediblər, məzarları önünə gül dəstələri qoyublar.

Daha sonra İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilib. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş tibb işçilərinin əziz xatirəsi anılaraq, məzarları üzərinə tər güllər düzülüb. Həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib.

Sonra Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) nazirliyin kollegiyasının Tibb İşçiləri Gününə həsr edilmiş geniş tərkibli iclası keçirilib. Toplantıda Bakı və bölgələrdə fəaliyyət göstərən tibb müəssisələrinin rəhbərləri, tanınmış tibb elmi xadimləri iştirak ediblər.

Əvvəlcə ölkənin tibb tarixini əks etdirən muzeylə tanışlıq olub. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

İclasda **səhiyyə naziri Teymur Musayev** tibb işçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara vacib və nəcib peşələrində uğurlar arzulayıb: «Belə əlamətdar günlərin qeyd edilməsi hər hansı bir peşə sahiblərinə cəmiyyətin verdiyi yüksək dəyərin ifadəsidir».

Teymur Musayev vurğulayıb ki, bu il adları müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış iki böyük şəxsiyyətin — dahi siyasi xadim, müasir Azərbaycanın memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın elm və təbabət tarixində silinməz izlər qoymuş görkəmli alim və həkim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmalarının 100 illik yubileylərinin qeyd olunması ilə əlamətdardır. Tibb İşçilərinin Peşə Bayramını «Azərbaycanın



tibb ictimaiyyətinə Ümummilli Lider Heydər Əliyevin hədiyyəsi» adlandıran səhiyyə naziri, eyni zamanda, bu günün Ulu Öndərin Azərbaycan səhiyyəsinə, tibb işçilərinin fəaliyyətinə yüksək qiymət verməsinin göstəricisi olduğunu deyib. Bildirib ki, 105 il əvvəl məhz iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Səhiyyə Nazirliyi yaradılıb: «105 il ərzində Azərbaycan səhiyyəsi şərəfli və çətinliklərlə dolu bir yol keçib, hər bir tarixi mərhələdə ona həvalə olunmuş missiyanı peşəkarlıqla yerinə yetirib».

Nazir Azərbaycan səhiyyəsinin ötən əsrin 70-ci illərindən sonrakı inkişafının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyib. Qeyd edib ki, əksər böyük tibb müəssisələri məhz Ümummilli Liderin hakimiyyəti dövrlərində inşa edilib. Yalnız paytaxtda deyil, regionlarda da çoxprofilli xəstəxanalar əhalinin istifadəsinə verilib. Müdrik siyasətçinin ölkəmizə rəhbərlik etdiyi illərdə bir çox mütəxəssislər tibbi biliklərini təkmilləşdirmək üçün xaricə göndərilib, öz peşə və bacarıqlarını inkişaf etdirərək vətənə qayıdıblar: «Bu gün də ölkəmizdə tibb işçilərinə həmin münasibət göstərilir, yüksək dəyər verilir. Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, gərgin zəhməti sayəsində ölkəmizdə bütün sahələrdə dinamik inkişaf templəri müşahidə edilir. Müasir dövrün tələblərinə uyğun olaraq, milli səhiyyə sistemi beynəlxalq standartlar əsasında qurulur, burada mütərəqqi idarəetmə texnologiyaları tətbiq olunur, innovativ layihələr reallaşdırılır, yüksək İKT tətbiqlərinin istifadəsi ilə səhiyyənin rəqəmsallaşdırılması, uğurlu menecment sistemi sahəsində müxtəlifyönümlü işlər icra olunur.

Heydər Əliyev Fondu və onun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da daim əhalinin sağlamlığının qorunmasına qayğı göstərir. Birinci vitse-prezidentin təşəbbüsü ilə səhiyyənin ən çətin problemlərinin həlli üçün icra edilən proqramlar əhalinin, xüsusən də gənc nəslin sağlamlığının qorunmasında mühüm rol oynayır. Görülən işlərin uğurlu nəticəsidir ki, bu gün sağlamlıq göstəricilərinə görə ölkəmizin beynəlxalq arenada mövqeyi möhkəmlənməkdədir. Səhiyyə sahəsində həyata keçirilən məqsədyönlü islahatlar Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlar tərəfindən müsbət qiymətləndirilir». Teymur Musayev Azərbaycan tibb işçilərinin son üç ildə iki sınaqdan uğurla çıxdığını xatırladıb: «COVID-19 pandemiyası Azərbaycanın səhiyyə sahəsində fövqəladə vəziyyətlərə yüksək hazırlıq səviyyəsini göstərdi. Digər imtahan isə işğal olunmuş ərazilərimizin azad edilməsi üçün 44 günlük Vətən müharibəsində yaralananların həyatı uğrunda savaş idi. Azərbaycanın tibb işçiləri ordusu hər bir yaralının xilası, normal həyata qayıtması uğrunda qüvvələrini səfərbər etdilər, yüksək əzmkarlıqla şücaət göstərdilər və bu gün də bu yöndə çalışmaqdadırlar.

Həkimlik andına sadiq qalan, hər bir xəstənin, yaralının həyatına öz həyatı kimi münasibət bəsləyən tibb işçilərimiz arasında, əfsuslar olsun ki, həm pandemiya dönəmində, həm də Vətən müharibəsində itkilərimiz oldu. 44 günlük Vətən müharibəsində 159 hərbi tibb işçisi müxtəlif dərəcəli bədən xəsarəti alıb. 11 həkim, 7 feldşer və 26 tibbi təlimatçı olmaqla, ümumilikdə 44 tibb işçisi qəhrəmancasına şəhid olub. Onların hər birinin əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq.

Xalqımızın sağlamlığının qorunması naminə səhiyyə, tibb elmi və tibb təhsili sahəsində yorulmadan çalışan hər kəsə fədakar əməyinə görə təşəkkürümü bildirirəm», — deyə Teymur Musayev çıxışına yekun vurub.

Tibb ictimaiyyətinin adından çıxış edən Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun baş direktoru İradə Axundova, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun baş direktoru Lətif Zeyniyev və «Mediland Hospital»ın baş həkimi Günel Əliyeva vurğulayıblar ki, Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından dərhal sonra onun həyata keçirməyə başladığı islahatlar tibb sahəsində də öz müsbət bəhrəsini verib. Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki Bakıda, bölgələrdə də qabaqcıl tibb mərkəzləri açılır və müasir avadanlıqlarla təchiz olunur.

Tədbirdə səhiyyə naziri Teymur Musayev Səhiyyə Nazirliyinin «Səhiyyə əlaçısı» döş nişanı və Fəxri fərmanı ilə təltif olunanlara mükafatları təqdim edib və təbriklərini çatdırıb.

Sonda Ulu Öndər Heydər Əliyevin milli səhiyyənin inkişafındakı rolundan bəhs edən «Sağlam siyasət» sənədli filmi nümayiş olunub.

# Səhiyyə Nazirliyi işğaldan azad olunmuş ərazilərdə tibbi xidmətdə fərqlənənləri təltif etdi

**Azərbaycan Respublikası səhiyyə nazirinin müvafiq Əmrinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yeni yaradılmış xəstəxanalarda peşə fəaliyyəti zamanı xüsusi fərqlənənlər, eyni zamanda, Türkiyədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərmək məqsədilə qardaş ölkəyə ezam olunmuş bir qrup tibb işçisi qüsursuz və səmərəli fəaliyyətlərinə görə və 17 İyun — Tibb İşçilərinin Peşə Bayramı Günü ilə əlaqədar olaraq Səhiyyə Nazirliyinin «Fəxri Fərman»ı ilə təltif ediliblər.**

Bununla əlaqədar iyunun 17-də Səhiyyə Nazirliyində təltif olunan tibb işçilərinə mükafatların təqdimat mərasimi keçirilib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, müxtəlif ixtisaslar üzrə təsis olunan peşə bayramları həmin sənətin sahiblərinə cəmiyyətin və dövlətin yüksək dəyər verməsinin göstəricisidir: «Bu baxımdan, 17 İyun — Tibb İşçilərinin Peşə Bayramı Günü bizim üçün ikiqat əhəmiyyət kəsb edir. Çünki bu peşə bayramı bir tərəfdən cəmiyyətin tibb işçilərinin əməyinə verdiyi yüksək qiymətin ifadəsidirsə, digər tərəfdən, Azərbaycanın tibb ictimaiyyətinə şəxsən Ümummilli Lider Heydər Əliyevin hədiyyəsidir».

Nazir 105 illik bir dövrdə Azərbaycan səhiyyəsinin şərəfli və çətinliklərlə dolu bir yol keçdiyini qeyd edib: «Bu müddət ərzində həm müharibələr, həm epidemiya və pandemiyalar zamanı səhiyyəmiz öz hazırlıq və cavab imkanlarını yüksək peşəkarlıq səviyyəsində nümayiş etdirib».

Səhiyyə naziri bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən Türkiyəyə ezam olunan tibb heyətimizin fəaliyyəti qardaş ölkədə də yüksək qiymətləndirilib. Tibb personalımız Kahramanmaraşda Türkiyə Səhiyyə Nazirliyinin nümayəndələri ilə qarşılıqlı əlaqədə yüksək peşəkarlıq nümayiş etdirərək, zəlzələdən zərər çəkmiş vətəndaşlara tibbi yardım göstəriblər.

Teymur Musayev qeyd edib ki, «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində həmin ərazilərdə yeni xəstəxanalar və tibb mərkəzlərinin yaradılması istiqamətində genişmiqyaslı layihələr icra edilməkdədir.

Tədbirin sonunda səhiyyə naziri Teymur Musayev bir qrup tibb işçisinə fəxri fərmanları təqdim edib.

# Bakıda Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumu keçirilib

**Bakıda Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təşkilatçılığı ilə ilk dəfə olaraq keçirilən simpoziumun təntənəli açılış mərasimində Azərbaycan Respublikasının səhiyyə qurumlarının rəhbərləri, nazirlər, xaricdə yaşayan və çalışan həkimlər, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların və səfirliklərin nümayəndələri, tanınmış həkimlər, özəl və dövlət tibb müəssisələrinin direktorları və digər şəxslər iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canından keçən qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin səhiyyənin inkişafındakı roluna həsr edilən film nümayiş olunub.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**in Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumu iştirakçılarına ünvanladığı müraciəti **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva** səsləndirib.

Tədbirdə çıxış edən **Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** belə böyükmiqyaslı tədbirin keçirilməsinin, xüsusən də onun müstəqil Azərbaycan səhiyyəsinin memarı Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmasının önəmini vurğulayıb: «17 İyun - Tibb İşçilərinin Peşə Bayramı Günü bizim üçün ikiqat əhəmiyyət kəsb edir. Çünki bu peşə bayramı bir tərəfdən cəmiyyətin tibb işçilərinin əməyinə verdiyi yüksək qiymətin ifadəsidirsə, digər tərəfdən Azərbaycanın tibb ictimaiyyətinə şəxsən Ulu Öndər Heydər Əliyevin hədiyyəsidir».

Teymur Musayev xatırladıb ki, Azərbaycan səhiyyəsi, əhalinin sağlamlığının qorunması həmişə Ümummilli Lider Heydər Əliyevin diqqət mərkəzində olub: «Ulu Öndərin göstərişi ilə Azərbaycan səhiyyəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, səhiyyə ocaqlarının yenidən qurulması, yeni tibb müəssisələrinin tikilməsi üzrə irimiqyaslı layihələr həyata keçirilib. Yeni elmi-tibbi mərkəzlər açılıb, təbabət üzrə elmi-tədqiqat institutlarının fəaliyyəti canlandırılıb. Ümummilli Liderin təşəbbüsü nəticəsində perspektivli gənclər qabaqcıl ali təhsil ocaqlarında oxumağa, gənc alimlər isə tibb müəssisələrində elmi tədqiqatlar aparmaq üçün aspirantura və doktoranturaya göndəriliblər.

Onlardan bir çoxu bu gün də fəaliyyətini davam etdirir, Azərbaycan səhiyyəsinin tərəqqisinə, həkimlərin və tibb alimlərinin yeni nəsillərinin yetişməsinə öz töhfələrini verir».

Daha sonra nazir öz çıxışında deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev milli səhiyyənin tərəqqisini daim diqqət mərkəzində saxlayır: «Dövlət başçısının rəhbərliyi altında vətəndaşların sağlamlığının mühafizəsi üzrə görülən işlər sayəsində Azərbaycan səhiyyəsi son 20 il ərzində böyük inkişaf yolu keçib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da vətəndaşların sağlamlığına daim diqqət və qayğı göstərir. Onun ölkə səhiyyəsinə, tibb işçilərinə qəlbən və əməli himayədarlığı, insanların səhhətinə qayğısı hər bir tibb işçisini qürurlandırır».

Çıxışının sonunda səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, Dünya Azərbaycanlı Təbiblərin I Simpozimunun gündəliyi də həm elmi, həm də mədəni baxımdan zəngindir: «Simpoziumun ölkəmizdə və ondan kənarda çalışan tibb mütəxəssisləri arasında peşəkar münasibətlərin gücləndirilməsinə, tibbin müxtəlif sahələri üzrə təcrübə mübadiləsinə, həmvətənilərimiz arasında həmrəylik mühitinin inkişafına töhfələr verəcəyinə əminəm».

Daha sonra çıxış edən **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev** səhiyyənin yeni maliyyələşmə mexanizmi olan icbari tibbi sığortanın ölkə üzrə tətbiqinin əhalinin tibbi xidmətlərə çıxışını asanlaşdırdığını, vətəndaşların səhiyyə sistemindən məmnunluq səviyyəsini artırdığını söyləyib: «Bu gün vətəndaşlarımız dəyəri çox yüksək olan cərrahi əməliyyatlardan ödənişsiz faydalanırlar. Bir zamanlar ölkəmizdə aparılması mümkünsüz olan çox çətin ürək əməliyyatları artıq yerli cərrahlarımız tərəfindən uğurla icra olunur». Z.Əliyev bildirib ki, tibb müəssisələrində, xüsusən bölgələrdəki xəstəxanalarda həkim çatışmazlığının aradan qaldırılması istiqamətində davamlı addımlar atılır. Bu məqsədlə qəbul edilmiş proqrama əsasən, xaricdə təhsil almış, 42-si cərrahi, 24-ü terapevtik profillər üzrə ixtisaslaşmış 66 həkim-mütəxəssis artıq Bakı, Sumqayıt və Gəncə şəhərlərində, Abşeron, Ağdaş və Şəki rayonlarında dövlət tibb müəssisələrində işə qəbul olunublar. Bu yaxınlarda müddəti daha bir il uzadılmış bu proqram, eyni zamanda, xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının tətbiqi vətəndaşlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılmasına xidmət edir: «Çox yaxşı olardı ki, xaricdən gələn həkimlərimiz Azərbaycandakı həmkarları ilə mütəmadi əlaqədə olsunlar, əməkdaşlıq etsinlər. Hesab edirəm ki, inkişaf etmiş ölkələrin səhiyyə praktikasını Azərbaycanda tətbiq etmək, tibbin ən son yenilikləri, müayinə və müalicə metodları haqqında məlumatları həmkarları ilə bölüşmək faydalı olar».

**TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** qurumun son illərdə gördüyü işlərlə bağlı, o cümlədən koronavirus pandemiyası ilə mübarizə tədbirləri, Vətən müharibəsi, işğaldan azad olunmuş ərazilərdə tibbi xidmətin təşkili və icbari tibbi sığorta çərçivəsində tibbi xidmətin yüksək səviyyədə qurulması haqqında ətraflı məlumat verib. İlk dəfə keçirilən Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumunda dünyanın 14 ölkəsində çalışan 121 azərbaycanlı həkim-mütəxəssisin iştirak etdiyini deyən V.Qurbanov əsas məqsədin dünyanın müxtəlif ölkələrində yaşayan və çalışan azərbaycanlı həkimlərlə tibb sahəsindəki yenilikləri paylaşmaq və mütəxəssislər arasında təcrübə mübadiləsini təmin etmək, eyni zamanda, xaricdə yaşayan azərbaycanlı həkimlərin milli səhiyyə sisteminin inkişafı istiqamətində aparılan işlərə öz töhfələrini vermələri üçün yeni imkanlar yaratmaq olduğunu söyləyib. Bildirib ki, TƏBİB peşəkar həkimlərimizi Vətəndə, tibb mərkəzlərimizdə görməyə hər zaman şad olar.

**Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev** son dövrlərdə Azərbaycanda tibb təhsilində kifayət qədər inkişafın müşahidə edildiyini, burada bir neçə prinsipin önəmli olduğunu deyib: «Ən vacib amillərdən biri tibb təhsilinin əlçatan olmasıdır. Yəni savadlı, bacarıqlı məzunlar həkimlik ixtisasını seçəndə maliyyə onlar üçün maneəyə çevrilməsin. Bu istiqamətdə son illər ərzində hər il dövlət sifarişli yerlərin sayı artırılmaqdadır. Proqnoz yerlərə olan nisbətdə tibb ixtisaslarına münasibətdə 91 faiz yerlər dövlət sifarişi əsasında maliyyələşir. Yəni həkim olmaq istəyən 100 abituriyentdən 91-nin təhsil haqqı dövlət tərəfindən qarşılanır.

Digər məsələ tibb təhsilinin əhatəliliyidir. Son dövrlərdə bu istiqamətdə bir sıra işlər görülüb. Biz təkcə paytaxtda deyil, regionlarda da ali təhsil müəssisələrində tibb fakültələrinin açılması istiqamətində mərhələli, keyfiyyəti qurban vermədən fəaliyyətimizi davam etdirməliyik. Bu, həm tibb təhsilinə, həm də universitetin inkişafına qarşılıqlı töhfə verir».

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov** xaricdə fəaliyyət göstərən azərbaycanlı həkimlərin sayının 2 minə yaxın olduğunu qeyd edib: «Çox sevindiricidir ki, onlar xaricdə təkcə həkim fəaliyyəti ilə deyil, eyni zamanda, müxtəlif tibb sahələrində inzibati vəzifələrdə də irəli çəkilirlər».

**Simpoziumda Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli** çıxış edərək dünyanın müxtəlif ölkələrində çalışan həkimlərlə Azərbaycanda fəaliyyət göstərən həkimləri bir araya gətirən belə böyükmiqyaslı bir tədbirin keçirilməsinin əhəmiyyətindən bəhs ediblər.

**Almaniyanın Haydelberq Universitetinin Manhaym Tibb fakültəsinin Cərrahiyyə klinikasının həkimi, cərrah-onkoloq, tibb üzrə fəlsəfə doktoru, dosent Vüqar Yaqublu** çıxışında Azərbaycanda səhiyyə sahəsində əldə olunan uğurlardan, eləcə də azərbaycanlı həmkarları ilə təcrübə mübadiləsi imkanı qazandıqlarından məmnunluğunu ifadə edib.

**İstanbul Liv Hospitalının Beynəlxalq Xəstə xidmətləri qrupunun həkimi Tural Xaspolad** isə dünyada tibb sahəsində gedən müasir yanaşmalar və tendensiyaların təqdim olunduğu simpoziumun iştirakçısı olduğu üçün təşəkkürünü bildirib.

Türkiyə, Rusiya, Almaniya, Amerika Birləşmiş Ştatları, Küveyt, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, İtaliya, Kanada, Qırğızıstan, Gürcüstan və Rumıniyada çalışan azərbaycanlı həkim-mütəxəssislərin iştirak etdiyi simpoziumun açılış mərasimi bədii hissə ilə davam edib.

Dünyanın müxtəlif ölkələrində yaşayan və çalışan azərbaycanlı həkimlərlə ölkəmizdə tibb sahəsindəki yenilikləri paylaşmaq, xaricdə yaşayan azərbaycanlı həkimlərin milli səhiyyə sisteminin inkişafı istiqamətində aparılan işlərə öz töhfələrini vermələri üçün yeni imkanlar yaratmaq, mütəxəssislər arasında təcrübə mübadiləsini təmin etmək məqsədi daşıyan simpozium altı gün ərzində öz işini davam etdirib.

## Azərbaycan və Kuba səhiyyə nazirlikləri arasında əməkdaşlıq genişləndirilir

**Azərbaycanın Səhiyyə Nazirliyində Kuba İctimai Səhiyyə Nazirliyinin nümayəndə heyəti ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, görüşdə nazir Teymur Musayev Azərbaycan ilə Kuba arasında dostluq münasibətlərinin həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla davam etdiyini vurğulayıb. T.Musayev ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib.

Azərbaycanın səhiyyə naziri bu ilin may ayında Cenevrədə Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası çərçivəsində kubalı həmkarı Xose Anxel Portal Miranda ilə görüşünü xatırladıb: «Görüş çox faydalı oldu. Biz tibb müəssisələri və tibb təhsili üzrə əməkdaşlıq, əczaçılıq sahəsində tədqiqat və qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr apardıq».

Sonda Teymur Musayev ölkələrimizin səhiyyə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Səmimi qarşılanmaya görə minnətdarlığını ifadə edən Kuba İctimai Səhiyyə Nazirliyinin nümayəndə heyətinin üzvləri qeyd ediblər ki, səfərin məqsədi Azərbaycanda fəaliyyət göstərən xəstəxanalara ilkin baxış keçirmək və onların mövcud maddi texniki bazası ilə tanış olmaqdır.

Görüş zamanı tibbi təhsil, müalicə-sağlamlıq turizmi, perspektivdə biotexnoloji və əczaçılıq istehsallarının Azərbaycanda təşkili, səhiyyə sahəsində ölkələrimiz arasında gələcəkdə Anlaşma Memorandumunun imzalanması və digər istiqamətlərdə birgə fəaliyyətlər barədə müzakirələr aparılıb.

## Qlobal Fondun layihələri ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfə verir

**Azərbaycan Səhiyyə Nazirliyində QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə layihə rəhbəri Olqa Avdeyevanın başçılıq etdiyi missiya ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə səhiyyə naziri Teymur Musayev Azərbaycanın Qlobal Fondla əlaqələrə və əməkdaşlığa hər zaman önəm verdiyini qeyd edib: «2005-ci ildən QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fond ölkəmizdə vərəm əleyhinə fəaliyyətin dəstəklənməsində yaxından iştirak edir. Hazırda Azərbaycanda Qlobal Fondun layihələri davamlı olaraq həyata keçirilir və ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfə verir. Son zamanlar Səhiyyə Nazirliyinin Qlobal Fondun missiyaları ilə mütəmadi keçirilən görüşləri əməkdaşlığımızın inkişafına böyük dəstəkdir».

Sonda səhiyyə naziri rəhbərlik etdiyi qurumla Qlobal Fond arasında səmərəli əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu deyib.

Öz növbəsində Qlobal Fondun missiya rəhbəri Olqa Avdeyeva Azərbaycanın AIDS və digər yoluxucu xəstəliklərə qarşı mübarizə sahəsində gördüyü işləri müsbət qiymətləndirib, göstəricilərin region üzrə uğurlu olduğunu bildirib.

O.Avdeyeva son zamanlar Qlobal Fondun Azərbaycan Səhiyyə Nazirliyi ilə birgə bir sıra mühüm layihələri uğurla icra etdiyini vurğulayıb. Görüşdə əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.

# Səhiyyə naziri tibb işçilərini təltif edib

*(Əvvəli səhifə 6-da)*

Səhiyyə naziri Teymur Musayevin digər əmri ilə bir qrup tibb işçisi səhiyyə sahəsində qüsursuz və səmərəli fəaliyyətlərinə görə və 17 İyun — Azərbaycan Respublikası Tibb İşçilərinin Peşə Bayramı Günü ilə əlaqədar olaraq Səhiyyə Nazirliyinin **«Fəxri Fərman»**ı ilə təltif ediliblər.

**Məhərrəmov Polad Məhərrəm oğlu,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Buynuz qişanın cərrahiyyəsi və transplantasiyası bölməsinin rəhbəri

**Əhmədova Aybəniz Cavid qızı,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi. Elmi işçi

**Əfəndiyeva Mətanət Elton qızı,** Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Bioloji obyektlərdə və mulyajlarda praktiki bacarıqların öyrədilməsi laboratoriyası. Bölmə müdiri

**Hüseynova Sitarə Tanrıverdi qızı,** Gəncə şəhər Dezinfeksiya stansiyası. Dezinfektor

**Əsədova Səbinə Tofiq qızı,** Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi. İmmunoloji laboratoriyanın müdiri

**Həsənova Nəzakət Məcid qızı,** Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi, İmmunoloji laboratoriya. Laborant

**Bayramova Cavahir Bayram qızı,** Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi, Molekulyar bioloji laboratoriya. Laborant

**Məmmədəliyeva Aygün Balakişi qızı,** Xaçmaz Regional XTİNM Mikrobioloji laboratoriya. Laborant

**Rüstəmova Aidə Yunis qızı,** Şəmkir Regional XTİNM Mikrobioloji laboratoriya. Laborant

**Dövlətova Fərqanə Əli qızı,** Lənkəran Regional XTİNM Mikrobioloji laboratoriya. Laborant

**Fərəcova Lətifə Eldar qızı,** İmişli Regional XTİNM Mikrobioloji laboratoriya. Laborant

**Xəlilova Yeganə İdris qızı,** Mingəçevir Regional XTİNM Mikrobioloji laboratoriya. Laborant

**Soltanova Cülyetta Camal qızı,** Milli Onkologiya Mərkəzi, Funksional diaqnostika şöbəsi. Həkim-kardioloq

**Cəfərova Sonaxanım Çingiz qızı,** Milli Onkologiya Mərkəzi, I Kimya terapiya şöbəsi (gündüz stasionarı). Həkim-onkoloq

**Əliyeva Lyudmila Aleksandrovna,** Milli Onkologiya Mərkəzi, Elmi işlərin əlaqələndirilməsi qrupu. Laborant

**Kürdova Sevda Muxtar qızı,** Milli Onkologiya Mərkəzi. Baş direktorun müavini

**Əskərova Rəna Aydın qızı,** Sanator-Kurort Reabilitasiya Mərkəzi. Nevrologiya şöbəsinin müdiri

**Ələkbərova Səadət İslam qızı,** Sanator-Kurort Reabilitasiya Mərkəzi, Fizioterapiya və tibbi bərpa şöbəsi. Tibb bacısı

**Rzayeva Ədilə Mirzə qızı,** QİÇS-lə Mübarizə Mərkəzi. Qəbul şöbəsinin müdiri

**Mehtiyev Oktay Hüseyn oğlu,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Haşımova Aytəkin Yusif qızı,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Həsənova Pərvanə Əlican qızı,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Şiriyev Zaur Şahin oğlu,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Hüseynova Səriyə Böyükağa qızı,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Hüseynova İlahə Ağamir qızı,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Tağıyeva Günay Telman qızı,** Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvü

**Quliyev Emin Filman oğlu,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Cərrahiyyə şöbəsi. Həkim-ümumi cərrah

**Rəhimova Gültəkin Abdulla qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, II Poliklinika şöbəsi. Həkim-terapevt

**Əliyev Elman İsa oğlu,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Cərrahiyyə şöbəsi. Həkim-ümumi cərrah

**Yusubov Əli Aslan oğlu,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, I Poliklinika şöbəsi. Həkim-kardioloq

**Həsənov Azər Möhübbət oğlu,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Yanıq Mərkəzi TTTY şöbəsi. Təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim

**Miriyeva Leyla Ağaməmməd qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası, Laboratoriya şöbəsi. Həkim laborant

**Abdullayeva Aybəniz Balahəsən qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Allerqologiya şöbəsi. Tibb bacısı

**Əhmədova Rita Aqaloyevna,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Cərrahiyyə şöbəsi Əməliyyatxana bölməsi. Əməliyyat otağının tibb bacısı

**İsmayılova Kəmalə Bayram qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Cərrahiyyə şöbəsi. Tibb bacısı

**Seyidova Məlahət Ağabala qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Yanıq Mərkəzi Plastik rekonstruktiv cərrahiyyə şöbəsi. Tibb bacısı

**Baxşıyeva Əsmər Ataxan qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Yanıq Mərkəzi Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsi. Xəstələrə qulluq edən kiçik tibb bacısı

**Qasımova Tamam Muxtar qızı,** «Nərimanov Tibb Mərkəzi» PHŞ, Yanıq Mərkəzi, TTTY şöbəsi. Sanitar qadın

**İsmayılov Elşən Eldar oğlu,** «Təcili Yardım Avtobazası». Sürücü

**Əliyev Altay Əli oğlu,** «Bona Dea» MMC, Onkologiya şöbəsi. Terapevt


## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Respublika Leproz (Cüzam) Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Umbakı qəsəbəsi*

**Gəncə Tibb Kolleci**
Ortopedik stomatologiya fənni üzrə müəllim - 1.0
Daxili xəstəliklər fənni üzrə müəllim - 1.0
*Ünvan: İ.Qayıbov küç., 14*
*Telefon: (02226) 6-83-47*

**ATU-nun Tədris Stomatoloji Klinikası**
Əczaçı - 1.0
*Ünvan: Ə.Qasımzadə küç., 14*
*Telefon: 597-43-23*

**2 nömrəli Klinik Psixiatriya Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 3.0
*Ünvan: S.Rüstəm küç., 40*
*Telefon: 440-15-60*

**Astara Rayon GEM**
Sanitar-feldşer - 1.0
*Ünvan: M.Cavadzadə küç., 2*
*Telefon: (02522) 5-10-51*

**Balakən Rayon GEM**
Həkim-epidemioloqun köməkçisi - 1.0
*Ünvan: R.Səmədov küç., 27*
*Telefon: (02429) 5-12-93*

**Xəzər Rayon GEM**
Sanitar-feldşer - 1.0
*Ünvan: Mərdəkan qəs., Yesenin küç., 92*
*Telefon: 454-29-53*

**«Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu» PHŞ**
*İmmunologiya şöbəsinin İmmunoterapiya bölməsi:*
Elmi işçi - 1.0
*Ünvan: C.Cabbarlı küç.,35*
*Telefon: 594-69-31*

**«Respublika Narkoloji Mərkəzi» PHŞ**
Sosioloq - 2.0
Tibb bacısı (qardaşı) - 4.0
*Ünvan: Maştağa qəs., Ş.Hüseyn küç., 71*
*Telefon: 558-75-16*

**Bərdə Rayon GEM**
Sanitar-feldşer - 1.0
*Ünvan: S.Vurğun küç.*
*Telefon: (02020) 5-18-33*

**Sumqayıt Şəhər GEM**
Həkim-epidemioloqun köməkçisi - 1.0
*Ünvan: Natavan küç., 30*
*Telefon: (01865) 5-94-05*

**Pirallahı Rayon GEM**
Sanitar-feldşer - 1.0
*Ünvan: ŞTQ. K.Rzayev küç., keçid 22/13*
*Telefon: 565-43-10*

**Şirvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**
Həkim-epidemioloqun köməkçisi - 2.0
Sanitar-feldşer - 2.0
Feldşer-laborant - 2.0
Entomoloqun köməkçisi -1.0
Tibbi-statistik - 1.0
*Ünvan: İ.Qayıbov küç., 11/35*
*Telefon: (02121) 5-34-36*



Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9350


## Abunə kampaniyası davam edir!

**2023-cü ilin II yarısı üçün abunə kampaniyası iyul ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204**
**h/h38090019449323220204 Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı**
**Kod: 805722 AZ03NABZ 01350100000000002944 BANK (VÖEN)9900001881**
**S W İ F T İBAZAZ 2 X**

## Başsağlığı

Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, tibb elmləri doktoru, professor **SƏFİXAN ŞAMİL OĞLU HƏSƏNOVUN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun kollektivi Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor **SƏFİXAN HƏSƏNOVUN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**


Santen
GECƏ VƏ GÜNDÜZ NƏMLƏNDİRMƏ
KATİONORM
Катионорм
• Gözlərin nəmləndirilməsi üçün kationlu emulsiya
• Gözyaşının hər üç qatının bərpasına kömək edir
• Konservantsızdır
KONTAKT LİNZALARIN ÜZƏRİNƏ DAMCILATMAQ OLAR
Tibbi məmulatdır
GECƏ NƏMLƏNDİRMƏ
OFTAGEL
ОФТАГЕЛЬ
• Uzun müddətli nəmləndirmə üçün, o cümlədən gecə saatlarında
• Tərkibində yüksək konsentrasiyalı karbomer var 0.25%
Dərman preparatıdır
Qeydiyyat vəsiqəsi DV №18-00657


ДОЛФИН®
dalğası ilə rahat nəfəs al!
KRVİ və qrip zamanı rinit
Vazomotor rinit
Sinusitlər ( haymorit, frontit, etmoidit)
Adenoidit
Allergik rinit
Hipertrofik rinit
Atrofik rinit
Burun boşluğu və burunətrafı ciblərin əməliyyata hazırlığı və əməliyyatdan sonra reabilitasiyası
İtburnu - kapilyarları möhkəmləndirir, regenerasiya edici təsir göstərir
Biyan - Allergiya əleyhinə, iltihabəleyhinə, virusəleyhinə və immunomodulyator təsir göstərir
Qalit - antiseptik təsir göstərir
Burun boşluğunun həcmli yuyulmasını təmin edir, virus, mikroblardan və selikdən tamamilə təmizləyir.
Əlavə komponentlərə görə iltihab və şişkinliyi aradan qaldırır.
İstifadəsi rahatdır. Burnu yuyarkən təzyiq tənzimlənə bilir, məhlulun temperaturu bədən temperaturuna uyğunlaşdırılır.
Gigiyenik seritifikat
Dolfin (Uşaqlar üçün) - SeriyaNº AZ 031 RSK 13384
Dolfin (Böyüklər üçün) - SeriyaNº AZ 031 RSK 13385
Dolfinlə burun yuyulmasına dair video məlumat


Sağlam bronzlaşmanın keyfini çıxarın
BIOLA natural wealth
KAKAO YAĞI
50 ml. e 1.70 FL.Oz.
HAVUÇ YAĞI
Gigiyenik sertifikat
Seriya № AZ 031 006


KORA
• Tərkibində zərərli maddələr yoxdur
• Rəngsiz və qoxusuzdur
NO-BİT
NEW-BİT
BİT-STOP
DURABİT
• DURABİT - ilə bit və sirkələrdən uzaq olun!
Gigiyenik sertifikat
Seriya № AZ 031 RSK 3575


ESPA10/20
ANTİDEPRESSANT
ESCİTALOPRAM
Həyat yaşadıqca gözəldir...!
Depressiyalar
Nevrozlar
Panik atak
Aqorafobiya
Erkən eyakulyasiya
ESCITALOPRAM
ESPA10
ESPA20
Biofarma
ZAPIFAR®
Olanzapin 5 mg / 10 mg
Həyatının rəngini dəyiş
ZAPIFAR 5
ZAPIFAR 10
Güclü anksiolitik effekt göstərir
Gərginlik, qorxu, həyəcan və narahatlığı götürür
Yuxunu yaxşılaşdırır
HB Co LTD
Biofarma


AVROMED
Dərman vasitələrinin 24 saat ərzində ölkədaxili çatdırılması
Beynəlxalq eczaçılıq brendləri
Xarici və yerli istehsalçıların parafarmasevtik məhsulları
Klinikalar və evlər üçün peşəkar tibb avadanlığı
Tibbi cihazlar
23.000+
Məhsulun çeşidi
9+
Regional Ofis
2.000+
Yerli aptek təchizatı
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az